AUDIT AND CONSULTING
uçot nəzarət sevir

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995

# "AS İNŞAAT-N" MMC -nin rəhbərliyinə
# MÜSTƏQİL AUDİTOR HESABATI

*Bakı şəhəri* *02.12.2021-ci il*

Biz **"AS İNŞAAT-N" MMC**-nin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində

yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**Şərti müsbət rəy üçün əsaslar**

Biz 23 noyabr 2021-ci il tarixində şirkətin auditoru təyin olunmuşuq və bununla da, ilin əvvəlində fiziki inventarizasiyanı müşahidə etməmişik. Bizim alternativ prosedurlardan istifadə etməklə, 31 dekabr 2020-ci il tarixində ehtiyatların miqdarı ilə əlaqədar qaneedici məlumat əldə etmək üçün imkanımız olmamışdır. İlkin ehtiyatlar maliyyə nəticələrinin və pul axınlarının müəyyən edilməsi zamanı nəzərə alındığı üçün məcmu gəlir və əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti haqqında hesabatda əks etdirilən il üçün mənfəət və ya gəlir ilə əlaqədar dəyişikliklərin zəruri olub-olmadığını müəyyənləşdirməyə imkanımız olmamışdır.

**Şərti müsbət rəy**

Bizim fikrimizcə,"Şərti müsbət rəy üçün əsaslar" bölməsində təsvir edilən halların mümkün təsiri istisna olmaqla, maliyyə hesabatları, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) əsasən 31 dekabr 2020-ci il tarixinə **"AS İNŞAAT-N" MMC**-nin maliyyə vəziyyətini, habelə onun göstəricilərini və həmin vaxt başa çatan il olduğu üçün pul vəsaitlərinin hərəkətini bütün aspektlər baxımından ədalətli şəkildə əks etdirir, doğru və ədalətli təsəvvür yaradır.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

AR Auditorlar Palatası tərəfindən təyin edilmiş rəyin kod nömrəsi: JVfZqUjbCI

Rəy 02.12.2021-ci il tarixində eyni qüvvəyə malik 2 nüsxədə tərtib edilmişdir.

Bunlardan biri **"AS İNŞAAT-N" MMC**-nin rəhbərliyinə təqdim edilir, ikincisi auditor təşkilatında saxlanılır.

**02 dekabr 2021-ci il**

**"A Audit and Consulting" MMC (№ AT/155) –nin Direktor-Auditoru:** **Əliyev Rüfət Yaqub oğlu**

AZƏRBAYCAN RESPUBLİKASI AZERBAIJAN REPUBLIC A AUDIT AND CONSULTING LIMITED LIABILITY COMPANY MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

**Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 06.02.2018-ci il tarixində verilmiş İCAZƏ № SA/394**